> ***Dövlət tərəfindən görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu ağır, çətin vəziyyətdən az itkilərlə çıxaq. Ancaq, eyni zamanda, hər bir vətəndaş bilməlidir və Avropanın aparıcı ölkələrinin təcrübəsi göstərir ki, əgər burada hökumətlə vətəndaşlar arasında birlik olmasa, biz bu xəstəliyin acı fəsadlarını yaşamalı olacağıq. Biz bu günə qədər həmişə xalq-iqtidar birliyinin hesabına inkişafa nail olmuşuq. Bu gün Azərbaycanın əsas təkanverici qüvvəsi xalq-iqtidar birliyidir. Çünki bizim siyasətimiz xalq tərəfindən həmişə dəstəklənib və bu dəstəyi biz bu gün də görürük.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

# Sərt karantin rejiminin tətbiq olunması koronavirusla mübarizəni hər bir vətəndaşın gündəlik həyat tərzinə çevirmək məqsədi daşıyır



***Artıq neçə aydır ki, dünya əhalisi COVID-19 pandemiyası ilə mübarizə şəraitində yaşayır. Dövlətlərin iqtisadiyyatı getdikcə zəifləyir. Hətta yüksək inkişaf dövrünü yaşayan bir çox ölkələrdə acınacaqlı sosial şərait hökm sürür. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatında dünyada koronavirusa yoluxanların sayının 6,5 milyon nəfəri ötdüyü, 390 mindən çox insanın öldüyü bildirilir.***

***Bu dəhşətli bəla özünü büruzə verdiyi ilk günlərdən Azərbaycan dövləti koronavirus infeksiyası ilə mübarizədə bütün zəruri tədbirləri həyata keçirib, pandemiya ilə əlaqədar məsələləri ciddi nəzarətdə saxlayıb, müvafiq strukturları COVİD-19-un geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq kimi vəzifələrə ciddi şəkildə yanaşmağa səsləyib. Etiraf edək ki, bunun müsbət nəticəsi olub. Başqa sözlə, xüsusi karantin rejimi dövründə, sərt qadağalar şəraitində yoluxma hallarının sayı minimuma endirilib, ölkəmizdə ölüm halları çox aşağı səviyyədə olub, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı yeni yoluxma hallarının sayını kəskin üstələyib.***

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədidə ASAN könüllüləri ilə görüşündə bu barədə deyib: “Bütün bunlar bir daha ona göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bu, onu göstərir ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır. Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik. Milyardlarla manat, – baxmayaraq ki, neftin qiyməti düşüb, – xərclədik və xərcləyirik. İnsanların sağlamlığı birinci yerdədir. Bu, onu göstərdi ki, ən çətin böhranlı anlarda biz düzgün addım ata bilərik və güclü iradə göstərə bilərik. Mən hər gün insanlardan yüzlərlə təşəkkür məktubu alıram. Onların cəmi bir hissəsi mətbuatda dərc edilir. İnsanlar bu məktublarda minnətdarlıqlarını bildirirlər. Mənim üçün görülmüş bu işlərə verilmiş ən yüksək qiymət vətəndaşların buna münasibətidir”.

Yuxarıda qeyd etdiyimiz kimi, dünya ölkələri tərəfindən pandemiyanın sosial-iqtisadi sahələrdə yaratdığı fəsadların aradan qaldırılmasına cəhd göstərildiyi bir vaxtda, Azərbaycan özünün yeni sosial-iqtisadi paketi ilə bu problemlərin həlli istiqamətində müsbət nəticələrə nail olur. Respublikamızın inkişafında iqtisadi amilin rolunu önə çəkən Prezident İlham Əliyev tərəfindən iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir, əhalinin məşğulluğu yüksək səviyyədə təmin olunur, işsiz və xüsusi karantin dövründə müvəqqəti işsiz qalan vətəndaşlara yardımların verilməsi reallaşdırılır. Bir sözlə, sosial dəstək tədbirlərinin miqyası genişləndirilməklə bir daha həyata keçirilən siyasətin önündə vətəndaş amilinin dayandığı, eyni zamanda, dövlətimizin başçısının hər bir vətəndaşın prezidenti olduğu təsdiqlənir.

Bütün bunlar isə hazırda Azərbaycanın dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir. Təsadüfi deyil ki, ictimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşən siyasətə mütləq inam və etimad bəslədiklərindən, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyindən xəbər verir.

Lakin təəssüflə etiraf etməliyik ki, xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yoluxma hallarının sayında artım müşahidə olunmağa başlayıb. Bu isə hökuməti ölkədə pandemiya ilə mübarizəni yenidən sərtləşdirməyə məcbur edib. Bununla bağlı Baş Nazir, operativ qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib. Müraciətdə cari ilin əvvəlindən başlayaraq dünyada cərəyan edən və fevral ayından Azərbaycana da idxal olunan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlət və hökumət tərəfindən təxirəsalınmaz və qətiyyətli tədbirlər görüldüyü, həmin tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında operativ qərargahın yaradıldığı bildirilib. Müraciətdə, eyni zamanda, operativ qərargah tərəfindən müvafiq qanuna uyğun olaraq martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan edildiyi, kütləvi tədbirlərin ləğv olunduğu, ölkəmizin quru sərhədlərinin bağlanıldığı, şəhər və rayonlararası gediş-gəlişin dayandırıldığı vurğulanıb.

Baş Nazirin müraciətində daha sonra deyilir: “Görülmüş tədbirlər müsbət nəticələr vermişdir və bu, statistik göstəricilərdə də öz əksini tapmışdır. Həkimlərin tövsiyələri və statistik göstəricilərə əsaslanaraq, aprelin 27-dən operativ qərargah mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlamışdır. Karantin dövrü ərzində istər həkimlərin, istərsə də digər rəsmi şəxslərin müraciətlərində mütləq olaraq sanitariya-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qoyulmuşdur. Əhalimizin böyük hissəsi görülmüş işləri yüksək qiymətləndirərək həmrəylik göstərdi və ilkin olaraq həmin tövsiyələrə və tələblərə riayət edirdi. Lakin təəssüflə qeyd etməliyəm ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi. Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artmışdır”.

Əlbəttə, bu cür şəraitdə hökumət tərəfindən 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunmasına dair qərar verilməsi başadüşüləndir. Yeri gəlmişkən, qərarda göstərilən tələblərə riayət edilməsinin məcburi və mütləq olduğu vurğulanıb. Eyni zamanda, xəstəliyin yoluxma halları digər şəhər və rayonlarda artacağı hallarda sərt tədbirlərin gələcəkdə həmin bölgələrdə də təkrarən tətbiq olunacağı diqqətə çatdırılıb.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarında hökumət tərəfindən müəyyənləşdirilən dövlət orqanları (qurumları) və digər təşkilatlar istisna olmaqla, bütün iş, xidmət, o cümlədən, ticarət sahələri üzrə fəaliyyətin dayandırılması xüsusi vurğulanıb.

Burada qarşıya belə bir sual çıxır: Həftəarası qısamüddətli özünütəcrid nə dərəcədə səmərəli ola bilər? Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlının fikrincə, uzunmüddətli özünütəcrid epidemioloji baxımdan daha çox səmərəlidir. Lakin bir sıra ölkələrin, eləcə də Azərbaycanın təcrübəsi göstərir ki, uzunmüddətli özünütəcriddən sonra vətəndaşlar daha çox sərbəstliyə meyil edirlər. Şübhəsiz ki, belə şəraitdə yoluxmanın sayı da artır. Ona görə, təcrübə göstərir ki, həftənin şənbə-bazar günləri sərt karantin tətbiq edildiyi təqdirdə yoluxmanın sayında azalma nəzərə çarpır.

Ramin Bayramlının qənaətinə görə, təmasların minimuma endirilməsindən sonra xəstəliyin inkubasiya və klinik əlamətlərinin meydanaçıxma dövrünə uyğun olaraq 7, 10, 14 gün sonra həmin nəticə barədə statistik məlumat vermək olar: “Biz də bu özünütəcridin nəticəsi barədə bir və ya iki həftə sonra məlumat verə biləcəyik. Aparılan təhlillər göstərir ki, burada müsbət təsir mütləq olacaqdır. Lakin bazar ertəsi işə çıxandan sonra da qaydalara ciddi şəkildə əməl etmək lazımdır”.

Burada son vaxtlar tez-tez səsləndirilən bir həqiqəti yenidən xatırlatmaq istərdik. Belə ki, Azərbaycanda karantin rejimi yumşaldılandan sonra istər Tibbi Ərazi Bölmələrin İdarəetmə Birliyi (TƏBİB), istər digər qurumlar və mərkəzlər tərəfindən indiki yoluxma artımı ehtimalla proqnozlaşdırılırdı. Təəssüf ki, bu, reallaşdı. Yəni, koronavirusla mübarizə tədbirləri yumşaldılsa da, xəstəliklə bağlı məsuliyyət hissi güclənmədi. Nəticədə situasiya dəyişdi, yoluxmanın sayı tədricən artdı və karantin tədbirlərinin daha da ciddiləşdirilməsi zərurəti yarandı. Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin professoru Qurbanxan Müslümov bu məsələ haqqında deyir: “Yumşalma tədbirləri o zaman səmərəli olur ki, qoyulan tələblərə əməl olunsun. Bəzən sual verirlər: bəs niyə pandemiyanın tüğyan etdiyi dövrdə maska taxmağın vacib olduğunu demirdilər, amma pandemiyanın sovuşma ərəfəsində bunun vacib olduğu bildirilir? Bunu insanlar anlamadığı üçün deyirlər. O zaman tədbirlərin ən ciddi dövrü idi, xəstəliyə yoluxanların başqaları ilə təmasda olmaq ehtimalı minimum idi, lakin yumşalma tədbirləri nəticəsində insanlar küçələrə çıxıb bir-biri ilə ünsiyyətdə olur və onların arasında xəstələnmə ehtimalı pandemiyanın tüğyan etdiyi vaxtdan dəfələrlə çox olur. Ona görə də hər dövrə uyğun tədbirlərin görülməsi vacibdir”.

Hazırda Azərbaycanda koronavirusla mübarizə tədbirlərinin sərtləşdirilməsi ilə bərabər, müalicə resurslarının gücləndirilməsi də diqqət mərkəzində saxlanılır. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlının KİV-ə bildirdiyinə görə, hazırda xüsusi rejimli tibb müəssisələrində 5 mindən çox, modul tipli xəstəxanalarda isə 2 min çarpayı mövcuddur.

Ümumiyyətlə, bu gün Azərbaycanda COVID-19-la mübarizə resursları baxımından heç bir narahatlıq hiss olunmur. İşin öhdəsindən tam gələ biləcək kadr və digər yetərli təchizat var. Sadəcə olaraq epidemioloji gedişin istiqaməti narahatlıq doğurur. Xəstə sayı çoxaldıqca ağır halların artımı da nəzərə çarpır. Virusun mutasiya ehtimalı güclənir. Operativ qərargah isə bütün bu multifaktorları nəzərə alaraq məhdudiyyətlərin tətbiqi ilə problemin qarşısını preventiv şəkildə almağı düşünür.

Qeyd etdiyimiz kimi, indiki şəraitdə əsas narahatlıq doğuran məsələ vətəndaş məsuliyyəti ilə bağlıdır. Başqa sözlə, dövlət koronavirusla bağlı üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirir, vətəndaş isə bir çox hallarda bu məsələyə laqeyd münasibət bəsləyir. Bax, elə buna görə də Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) alış-veriş zamanı COVID-19 infeksiyasından qorunma yolları haqqında məlumatını xatırlatmaq istərdik. Həmin məlumatda onlayn alış-verişin əhəmiyyəti xüsusi qeyd olunub. Əks halda mağazaya getmək zərurəti yaranarsa, bu işi ailə üzvlərindən birinin, özü də sağlam şəxsin yerinə yetirməsi, pik saatlarda ticarət müəssisəsinə getməkdən çəkinməsi və yaşadığı yerə yaxın mağaza seçməsi tövsiyə edilib. Bütün bunlarla bərabər hər bir vətəndaşa maskadan istifadəyə xüsusi önəm verməsi, digərləri ilə fiziki məsafə saxlaması, ödəniş etdiyi kartı dezinfektantla təmizləməsi və s. məsləhət bilinib.

Buradan aydın görünür ki, pandemiya ilə səmərəli mübarizə aparmağın yolu insanların davranışı və məsələyə məsuliyyətlə yanaşması ilə sıx bağlıdır. Bununla bərabər, virusla mübarizədə səmərəli nəticə əldə edilməsi ictimai yerlərdə, iaşə müəssisələrində xəstəlikdən qorunmaq üçün qaydalara həmin obyektlərin sahiblərinin, vətəndaşların mütləq riayət etmələrindən asılıdır. Başqa sözlə, hər bir şəxs sosial məsuliyyət daşıyaraq, özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qaydaya və tələblərə ciddi yanaşmalı, ətrafındakıları da bu həqiqətin dərkinə yönəltməlidir. Əks təqdirdə, COVİD-19-la mübarizədə istənilən nəticənin gerçəkləşdirilməsi mümkün olmayacaq. Buna görə də hər bir məsuliyyətsiz davranış, hər bir qayda pozuntusu xəstələnmək və öz həyatını, ətrafını risk altına atmaq deməkdir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***